***YAŞAYIR HEYDƏR ATA!***

Qara yellər gətirib qürbətdən soraqları,
Qəmə-yasa batırıb yaxın, uzaq xalqları.
Ana Vətən hüzünlə endirib bayraqları,
O haqqın sədasıdır, ölməz haqqa  ər, Ata,
Yaşayır Heydər Ata!

Canlı abidəsi var, yurdun hər qarışında,
Silinməyən izi var torpağında, daşında,
Öz atını səyirdir siyasət savaşında,
Mllətimin yolunda özünü atır oda,
Yaşayır Heydər Ata!

Babəkin düşmənlərə sıyrılan silahı o,
Xətai hünərinin böyüklük pənahı o,
Şərəfli tariximin bu günü, sabahı o,
Hamı səcdəyə gəlir, salam verir bu ada,
Yaşayır Heydər Ata!

Onun hər kəlamından doğulan hikmətə bax!
Müdrik baxışlarında tükənməz sərvətə bax!
Allahın çox sevdiyi haqqa, ədalətə bax!
Yad da həsəd aparır o yaşayan həyata,
Yaşayır Heydər Ata!

Yaşadıb imam kimi peyğəmbər imanını,
Çoxaldıb qətrə-qətrə fəxarət inamını,

Yetirib ana yurda işıqlı İlhamını
Odur millətə öndər, odur bəxtəvər ata,
Yaşayır Heydər Ata!

***MirKazım Seyidov***

***Günəşə qovuşmaq istəyirəm mən! – B.: Çinar-Çap, 2008. – S.31-32.***